MƏDƏNİYYƏT

# Səhnə sevgisi..

## YAŞAR NURİNİN BURATİNODAN BAŞLAYAN "MACƏRALARI"

**60-cı illərin əvvəllərində televiziyada, əsasən, uşaq verilişlərində gülərüz, şən, çılğın bir oğlan uşağı görünməyə başlayıb. Üzündə şeytan tükü varmış kimi onu kim görürmüşsə, dərhal ekran qarşısında sehrlənib qalarmış və özündən asılı olmadan simasında təbəssüm yaranarmış.**

**Yaşar Nurinin Buratinodan başlayan "macəraları"**

*(davamı)*

**Sürəkli alqışlar!** Seyrçilər rəğbətlə, sevimli aktyorunu salamlayır. O isə "obrazdan çıxmadan" donmağıyla pərəstişkarlarının salamlarını alır. Alqış qoparıb, səhnədən getmək də Yaşara xas fənddir. Açığını desək, bu, ən çətin fəndlərdən biridir. Bir çox pyeslərdə, ələlxüsus, çağdaş komediya və dramlarda müəlliflər fikri daha çox ansamblın hərəkət quruluşuna yönəldirlər. Səhnədən gediş üçün öncədən personaja vurğulu, nidalı, mənalı, partlayıcı qüvvəyə malik kəlmə, yaxud ifadə, cümlə vermirlər. Daha doğrusu, heç bu təmənnada olmurlar da. Yaşar bu "əngəl"i asanlıqla aşır, bu "maneə"ni ustalıqla adlayır. Həmin işdə onun dadına parlaq improvizə qabiliyyəti yetişir. Yaşarın rol üzərindəki iş prosesi məşqlərdə bitmir. Bəzi "bombalar" tamaşa zamanı bədahətən partlayır, bəziləri isə vəziyyətə cavab olaraq.

Pauzanı saxlamaq - ilk baxışdan bu fənd, son dərəcə asan görünə bilər. Axı susmaqdan rahat nə ola bilər? Yaşar pauzadanmənalı gərgin sukutdan bir tamaşada çox istifadə etmir, onun dəyərini qoruyur. Çünki bir dəfə, özü də obrazın hadisələrlə bağlı ən gərgin epizod yerində istifadə edilən sükut, tamaşaçıya uzunuzadı monoloqlardan daha çox şey "deyir". Yaşarın ustadı Tofiq Kazımov tamaşalarını (illah da ki, İlyas Əfəndiyevin lirik-psixoloji dramları əsasında qoyulanları...) bu cür "çoxdanışan sukutlarla" özünəməxsus ifadəliklə zənginləşdirirdi. Məncə Yaşar da ustadının həmin fəndini məharətlə mənimsəyib, bundan səmərəlicəsinə faydalanıb və ona öz şəxsi "rəngini" verib. Seyrçilərlə ünsiyyətə arxalanaraq, Yaşar Nuri bu fəndi ("mənalı sükutu") qarşılıqlı dialoqun əməli vasitəsinə çevirir. Bu, vasitəyə xüsusi iliqliq, istilik verən həmsöhbətlərinin zövqünə inam və birgə yaradıcılığına çağırışdır.

Tamaşanın ilk anlarından qəhrəmanını birmənalı təqdim eləyən Yaşar, xüsusi dəqiqliklə onun (personajının) xasiyyətnaməsini səhnəyə hər yeni gəlişində təsdiqləyir, rəngarəngləşdirir və tamaşanın, təxminən, ortasında obrazı seyrçilərin "köhnə tanışına" çevirir".

### Firəngizlə olan sevgi

İlham Rəhimli Yaşar Nurinin teatrdakı fəndlərindən söz açdı. Mən həyatdakı fəndlərindən danışacam. Rəhimə ilə evliliklərindən iki qızları oldu. Yaşar Nuri ailəyə, qadınına sadiq bir insan idi. Sevgisi iki qütbə ayrılmışdı – sənəti və ailəsi. Heç birini o birindən ayrı təsəvvür edə bilmirdi. Amma sağlığında özünün də dediyi kimi, insanın qəlbində elə bir sevgi olur ki, onunla dərdləşə bilirsən. Yəqin düşünəcəksiniz ki, bu Firəngiz xanım Mütəllimova ilə olan sevgisidir. Bəlkə də, hə, bəlkə də, yox, amma bu sevgi vardı, indi də Firəngiz xanım Yaşar Nurini çox sevdiyini etiraf edir, amma hər kəs öz aləmində busevgiyə istədiyi donu geyindirir. Yaşar Nuri isə bayaq dediyim ki, bunu dərdləşdiyi sevgi hesab edirdi. Firəngiz xanım deyir, o qədər çox sevirəm ki, Yaşarı, bir dəfə hətta Rəhiməyə də dedim, iki qızınız var, biri olsun mənim, ver mən baxım, o birinə də sən. Ailədə sədaqətə, inama baxın ki, təkcə Rəhimə xanım bu sevgiyə onun əyninə biçilmiş donu geyindirə bilib və bu səbəbdən münasibətlərdə problem yaranmayıb.




### İçki, serroz, 4 illik xəstəxana həyatı

Azərbaycan kinosunda dürlü-dürlü obrazlar yaradıb. Komik rolu da var, faciəlisi də. Hər birində də özünəməxsus çalarlar. "Mozalan" satirik kinojurnalında yaratdığı hər obraz özü bir kinodur. Teatrda, kinoda, "Mozalan"da, televiziyada yaratdığı bütün obrazlar, onun sənətdəki əməyinin qiyməti 1981-ci ildə SSRİnin əməkdar artisti fəxri adından tutmuş, 2011-ci ildə 60 yaşında ona verilən "Şöhrət ordeni"nə qədər layiqli dəyərini alıb. İnsan həyatının müəyyən bir dönəmində bəzən bilərəkdən, bəzən bilmədən istəmədiyi yola düşə bilir. Yaşar Nuri ağıllı, şüurlu surətdə içki həvəskarı idi. Yeyib-içən oğlan idi – özünün təbirincə ifadə eləsək. Bunun ona əksər hallarda ziyanı dəyirdi. İçkili olduğuna görə bəzən çəkiliş təxirə salınırdı. Bir dəfə dövlət televiziyasında yeni il şənliklərində Şaxta baba rolunda ikən içkili olması, həmin şənliyin çəkiliş prosesini tamam əngəlləmişdi, bununla belə həmkarları, rejissorlar onu o qədər məhəbbətlə sevirdilər ki, güzəştə gedirdilər. Kimsə ona dərs vermək fikrinə belə düşmürdü ki, içmə, yaxud az iç. Buna Yaşar Nuri özü rəvac verməmişdi ki, kimsə bu cəsarətli addımı ata bilsin. Amma bu aludəçilik artdıqca öz izini, nəinki onun işində, səhhətində qoymağa başlayırdı. Səhhət əldən gedirdi.

İlk dəfə qaraciyərində yaranan problem ona yeni ciyər köçürülməsi ilə sonunclandı. Hamı belə başa düşdü ki, bu xəstəliyin sonudur, yəqin Yaşar Nuri qalan həyatını sağlam, içkisiz keçirər.

Onunla eyni vaxtda müğənni Baloğlan Əşrəfova da qaraciyər köçürülmüşdü. İkinci hələ də sağ-salamatdır. Yaşar Nuri isə heç bir çərçivəyə sığmayan insan olduğundan, həkimin verdiyi məsləhətlərin tam əksinə həyat tərzi seçdi, daha doğrusu, əvvəlki həyat tərzini davam etdirdi. Nəticədə, xalq artistimiz dörd il özü demiş, xəstəxanaların fəxri sakininə çevrildi.

Haqqında dörd-beş dəfə ölüm xəbəri yayıldı. Kim idi bu xəbəri yayan, hardan qaynaqlanırdı belə xəbər? Bəlli deyildi. Bəlli olan o idi ki, aktyor, həqiqətən də, bu dörd ildə, əslində, çox ölübdirildi. Gah aparatın köməkliyi ilə, gah da onu sevənlərin sevgisi sayəsində həyata qayıdırdı, tam bərpa olunmaq isə mümkünsüzdü görünür. Sonuncu görüşümü xatırlayıram Yaşar Nuri ilə. "Şöhrət ordeni" almışdı, səhəri gün özü Milli Dram Teatrının qarşısına gəlmişdi, əlində əsa. Teatrın qarşısındaca stul vermişdilər, əyləşib ona gələn təbrikləri qəbul edirdi.

Səhhəti ilə maraqlandım. Dedi ki, səkkiz dondurmanı birdən yediyi üçün bütün nəfəs yolları, o cümlədən, köçürülmə ciyəri soyuqlayıb. Adam bunu elə dedi ki, elə bil, qəhrəmanlıq edib, yəni ölümün özü onun üçün qorxulu deyildi. İnsan 60 yaşını qeyd etməyə hazırlaşırdı, amma daha çox 80-90 yaşlı adam təsiri bağışlayırdı, artıq o dünyaya hazır adam. Həm də sabaha ümidi vardı, inanmırdı belə tezliklə bu dünya ilə vidalaşa bilər. Qəribədir, elə bilirdi ki, ölümə də meydan oxuya bilər.

### Dörd dəfə ölüm xəbəri

"4 ildir bu xəstəliklə əlləşirəm. Amma yorulmaq olmaz, yorulmaq mənlik deyil. Həyatda yorula bilərəm, səhnədə yox... İkincisi də, lazım olmasan, gərək özün yavaş-yavaş gedəsən. Mən səhnəyə çıxarkən alqışlanıram. Bilirsinizmi, səni növbəsiz mağazaya buraxarlar, qırmızı işıqda keçəsən bağışlayarlar, amma tamaşaçısevgisini qazanmaq çox çətin məsələdir. Mən bu sevgini hiss edirəm. Teatrın açılışında mən salona daxil olanda o cür alqışlandım. Gəldim evə, amma yenə özümü səhnədə hiss edirdim. Mən bildim ki, səhnəyə çıxanda, sənə əl çalırlarsa, səni öpürlərsə, sənə növbəsiz yer verirlərsə, deməli tamaşaçı məhəbbətini qazanmısan. Özümə qarşı tamaşaçı sevgisini hiss etdiyim üçün çox xoşbəxtəm. Bəzən dost-tanışlarım məni danlayır, deyirlər: "Əşşi elədiyini eləmisən, bu yaşda sən elədiyini heç kim eləməyib". Bəzi dostlarım isə "Yaşar, bu yaşa qədər sən nələr eləməmisən, bəsdir də" – deyirlər. Deyirəm, yox bəs deyil, imkan olar işləyərəm, olmaz da ki... Amma yenə gələcəyəm, yenə baxacağam. O əzmlə çalışıram ki, səhnəyə çıxım və çıxacağam. Nəinki burada, hələ Musiqili Komediyada, Gənc Tamaşaçılar Teatrında, Kukla Teatrında da işlərim var".

60 illiyi birtəhər xəstəlikdən imkan tapıb qeyd olundu. Dəfələrlə xəstəliyi səbəbindən təxirə salınmışdı. Yorulmadan çalışdığı səhnəyə hələ qayıdacağını, müxtəlif teatrlarda, müxtəlif obrazlar oynayacağını düşünürdü. Necə ki, Opera və Balet teatrında, Musiqili Komediyada, hətta Kukla Teatrının səhnəsində oynamışdı, yenə oynamaq arzusunda idi. Bu arzunu reallaşdırmaq üçün isə, ya iradəsi çatmırdı ki, səhhətini də qorusun, ya da ... sadəcə, həm də nə isə istəmirdi.

2012-ci ilin noyabrında növbəti ölüm xəbəri düz oldu. Getdi bu dünyadan səhnəmizin Yaşar Nurisi, Nurlu Yaşarı, həmişə Yaşarı. Özündən sonra rolları, təbəssümü, bir də qəlblərdəki sevgisi qaldı. Bu gəlişi gözəl sözlər deyil, reallıqda belədir, hər birimizin içində bir Yaşar Nuri sevgisi var...

***Raminə Qurbanlı***